# Azərbaycanın mədəni irsi və turizm mədəniyyəti

86,6 min kv. km. ərazisi və 8.5 milyondan bir qədər cox əhalisi olan Azərbaycan Respublikası nadir təbii-iqlim xüsusiyyətlərinə malik bir ölkədir.

Şahdağ, Babadağın vüqarla, əzəmətlə ucalan zirvələri, Böyük Qafqazın cənub ətəklərindən axan çaylar, çoxsaylı şəlalələr, büllur kimi şəffaf Göy-Göl, Maral gölün firuzəyi səthi, Qobustanın sərt və eyni zamanda mənzərəli palçıq vulkanları, Lənkəranın nadir qoruqları, Abşeron və Nabran bölgəsinin müalicəvi əhəmiyyətli narın qumlu çimərlikləri – Azərbaycan turistlərinin gözündə məhz belə canlanır.

Planetimizin 11 iqlim zonasından 9-u bu və ya digər şəkildə subtropik zonadan tutmuş yüksək dağ çəmənlərinə qədər Azərbaycan ərazisində mövcudluğu hamıya məlumdur. Flora aləmi özünün parlaqlığı və rəngarəngliyi ilə adamı məftun edir. Son 13 milyon ildə dünyada baş verən relyef və iqlim dəyişikliklərinə duruş gətirən Azərbaycanın təbii şəraiti qorunub saxlanılmışdır.

Dünyada tanınmış "Karlovı Varı" sularından heç də geri qalmayan isti və mineral bulaqlar – Badamlı, Turşsu, İstisu böyük iqtisadi və müalicəvi əhəmiyyət daşıyır.

Azərbaycanı günəşli ölkə adlandırırlar və bu da təsadüfi deyil. İl ərzində günəşli günlərin sayına görə respublikanın iqlimi İtaliya, İspaniya və Yunanıstanla müqayisə edilə bilər. Azərbaycan ərazisi boyu Xəzər dənizinin 825 km. uzanan sahillərinin ucdantutma istirahət zonasına çevrilməsi üçün bu gün hər cür şərait mövcuddur.

Azərbaycan zəngin tarixə və qədim mədəniyyətə malik ölkədir. Ölkəmizin ərazisində 6 mindən artıq tarixi memarlıq abidələri mövcuddur. Onların əksəriyyəti Azərbaycan ərazisindən keçən Böyük İpək yolu boyunca qədim karvan yollarının üstündə yerləşir və indinin özündə də heyrət doğurur.

Bu abidələrə misal olaraq ibtidai insanların Qobustan mağaralarında qayaüstü rəsmlərini, islama qədərki dövrün mərasim tikililəri – atəşpərəstlik məbədləri, qüllələr, daşların zirvəsindəki alban kilsələri və ibadətgahlar, möhtəşəm qala divarları və qəsrlər, habelə geniş karvansaralar, islam mədəniyyəti dövrünün əzəmətli sarayları, memorial, ayin və digər tikililəri göstərmək olar.

Azərbaycanın XII-XVII əsrlər memarlıq abidələri dünya memarlıq irsinin qızıl fonduna daxil olmuşdur. Bu ilk növbədə XII əsrə mənsub Bakının "İçərişəhər" adlanan kompleksidir. Onu da qeyd etmək lazımdır ki, yüksək qala divarı ilə əhatə olunmuş 22 hektarlıq kiçik bir ərazidə orta əsrlərin yadigarı olan 44 nadir abidə yerləşmişdir. Bunlardan Şirvanşahlar sarayı (XV əsr), Sınıqqala minarəsi (XI əsr), Qız qalası (XII əsr), Cümə məscidinin minarəsi (XV) və s. göstərmək olar.

İçərişəhərin yaxınlığında dünyada yeganə olan Azərbaycan xalçaçılıq muzeyi yerləşir. Həmin muzeydə Azərbaycan xalqının bədii irsinin müxtəlifliyini səciyyələndirən çoxsaylı eksponatlar toplanmışdır. Xovlu, eləcə də xovsuz Azərbaycan xalçaları özünün gözəlliyi və ifadəliliyi ilə nadir incəsənət əsərləri olmaqla orijinal texniki və bədii keyfiyyətləri ilə fərqlənir.

Bakıdan 30 km aralıda oda sitayiş rəmzi olan zərdüştlük abidəsi – atəşpərəstlərin məbədi Atəşgah yerləşir. Qədim ataşpərəst məbədləri VII-VIII əsrlərdə İslamın yayılması ilə ərəb qəsbkarları tərəfindən dağıdılmışdır. Yalnız on əsrdən sonra Hindistandan gəlmiş atəşpərəst tacirlər və zəvvarlar Suraxanı qəsəbəsindəki keçmiş məbədin yerində təbii qazın yana-yana çıxdığı ərazidə xalq arasında Atəşgah adı ilə tanınan indiki məbədi inşa etmişlər.



***Azərbaycan turizm sənayesinin inkişafı üçün zəngin ehtiyatlara malikdir. Bu hər şeydən əvvəl onun çox əlverişli siyasi-coğrafi mövqeyə malik olması ilə bağlıdır. Belə ki, Azərbaycan iki dünya sivilizasiyasının qovuşuğunda, Trans-Qafqaz nəqliyyat dəhlizinin ortasında yerləşir ki, bütün infrastrukturlar – Avropanı Qafqaz və Mərkəzi Asiya ölkələri ilə birləşdirən hava və dəniz daşımaları, magistral avtomobil və dəmiryolları buradan keçir.***

Eramızın VII əsrində Azərbaycan ərazisi ərəblər tərəfindən işğal olunmuş, əhali İslamı qəbul etmişdir. Bu dövrdə yeni mərasim tikililəri – məscidlər inşa edilməyə başlamışdır. Onların ən qədimi Şamaxı (Qoşa minarəli –743 il), Gəncə (çümə məscidi-XIX əsr), Şəki (Gileyli-VIII əsr), Zaqatala (cümə məscidi-XIX əsr), İsmayıllı (Bədöyün və Zəvəro məscidləri-1791 il), Quba (cümə məscidi-XIX əsr) və digər rayonlarda bizim günlərə qədər qorunub saxlanılmışdır.

XII əsrdən başlayaraq Azərbaycan ərazisində dövlətçiliyin möhkəmləndirilməsi və şəhərlərin inkişafı baş verdi: yerli ənənələrlə yüksək peşəkar ustalığı üzvi şəkildə özündə birləşdirən memarlıq məktəbləri təşəkkül tapdı. Şirvan, Abşeron, Naxçıvan, Aran və digər memarlıq məktəbləri artıq təşəkkül tapmışdı. Bu məktəblərin ustaları tərəfindən yaradılmış memarlıq abidələri İpək yolu marşrutu boyunca Azərbaycanın bir çox şəhərlərində yerləşir. Bunların arasında qalalar, zəngin bədii tərtibat verilmiş saray tikililəri, türbələr, məscidlər, körpülər, karvansaralar, hamamlar və mədəni-məişət təyinatlı digər obyektlərə rast gəlinir.

Bu abidələr Azərbaycan memarlıq abidələrinin qızıl fonduna da-xildir və İpək yolu marşrutunda xarici qonaqlara göstəriləbiləcək başlıca turizm məhsuludur.

Orta əsrlər dövrünün memorial tikililəri İpək yolu marşrutunda məqbərələrlə təmsil olunub. Məsələn, Qobustan rayonunun inzibati mərkəzi olan Mərəzə qəsəbəsi yaxınlığında Diribaba türbəsi (XV əsr), Şamaxı rayonunda "Yeddi Gümbəz" türbələr kompleksi (XVIII əsr), rayonun Kelaxana kəndində sərdabələr (XVII əsr), 1457-ci ildə Ağsu şəhərində tikilmiş Şeyx Dursun türbəsi, İsmayıllı rayonunun Həzrə kəndində türbələr kompleksi (XV-XVI əsrlər), Qazax rayonunun Poylu kəndində türbələr kompleksi (XIX əsr), Gəncədə İmamzadə türbəsi kompleksi (XVII-XIX əsrlər) və b. göstərmək olar.

Azərbaycanın xanlıqlara parçalandığı feodalizm dövründə xan sarayları və içqalaların inşası sürətlənir. Bu dövrün qorunub saxlanılmış ən möhtəşəm abidələrindən biri Şəki şəhərində XVIII əsrə aid əzəmətli Şəki xan sarayıdır. Şəkidə "Gələrsən-görərsən" qalası (XVIII əsr), Zaqatalada Şamil qalası (XVIII əsr), Şəmkir rayonunda "Koroğlu qalası", Şamaxı ətrafında "Gülüstan" qalasının xarabalıqları maraq kəsb edir.

Dağ çayları üzərində körpülər salınması həmin illər üçün böyük əhəmiyyət kəsb edirdi. Bunun üçün isə xüsusi mühəndis bilik və bacarığı ilə yanaşı, həm də körpünün memarlıq kompozisiyasını ətraf yerlə əlaqələndirmək bacarığı tələb olunurdu. Belə körpülər çox yerdə qorunub saxlanılmışdır: Gəncə yaxınlığında, Xanlar şəhərində Ağ körpü (XII əsr), Ağsu şəhərində XVI əsrə məxsus körpü, Şamaxıda 1826-cı ildə inşa edilmiş körpü. Bizim günlərədək gəlib çatmış memarlıq tikililərinin uzunömürlülüyü Azərbaycan memarlarının yüksək ustalığından xəbər verir.

Dünya dəfələrlə Azərbaycan ustalarının sənətinə - gözəl xalçaları, daş, metal və ağacdan hazırladığı ecazkar yaradıcılıq məhsullarına heyran qalmışdır. Amerikanın bir çox muzeylərində və fərdi kolleksiyalarda Azərbaycan dekorativ sənətinin saya gəlməz əşyaları saxlanılır. Azərbaycan zəngin sənət ənənələri diyarıdır. Hələ keçmiş zamanlarda bu diyarda Cənubi Qafqaz üçün səciyyəvi olan xalq dekorativ sənəti və xüsusilə xalçaçılığın demək olar bütün növləri inkişaf etmişdir. Onların hər birində Azərbaycan ustalarına xas zərif, incə işləmə üsulu öz

əksini tapmışdır.

Azərbaycanın dekorativ-tətbiqi sənətində ilk yerlərdən biri bədii keramikaya məxsusdur. Mingəçevir, Balakən, Gəncə, Naxçıvan, Qazax, Bakı və Azərbaycanın digər yerlərində arxeoloji qazıntılar zamanı çoxsaylı bədii keramika nümunələri tapılmışdır. Keramika sənəti feodal Azərbaycanda xüsusilə çiçəklənmişdir.

Bakıda, Azərbaycan Tarixi Muzeyi və Nizami adına Ədəbiyyat muzeyinin eksponatları arasında yüksək bədii ustalıqla işlənmiş nadir dulusçuluq məmulatlarına rast gəlmək olar. Bakı muzeylərində, Ermitajda, Moskvada Kremlin Silah palatasında, İstambul, London, Paris, Filadelfiya muzeylərində azərbaycanlı ustaların müxtəlif dövrlərə məxsus metaldan əl işləri – zərgərlik, oyma, mis üzərində naxışla işlənilmiş məmulatları saxlanılır.

Metalın bədii işlənməsi Azərbaycanda lap qədimdən - çoxəsrlik tarixə malik olub, geniş yayılmış və orijinal dekorativ növüdür. Hələ e.ə I minillikdə Azərbaycan torpağında dəmir, mis, gümüş və qızıldan yüksək ustalıqla işlənmiş məişət və bəzək əşyaları hazırlanırdı.

Azərbaycan qədimdən xalçaçılıqla şöhrət qazanmışdır. Xalçaçı qadınların mahir barmaqları xalça kətanını bədii portret sənətinə çevirmişdir. Dünya şöhrətli Azərbaycan xalçaları ABŞ, Böyük Britaniya və digər ölkələrin muzeylərini bəzəyir. Azərbaycana gələn turistlər Bakıda yerləşmiş dünyada bənzəri olmayan xalçaçılıq sənətinin şah əsərləri ilə muzeydə tanış olmaqla yanaşı toxuculuq prosesini köhnə şəhərdə fəaliyyət göstərən xalça sexində də bilavasitə izləyə bilərlər.

Respublikamızın mədəniyyət və incəsənət sahəsində tələbatı ödəmək üçün geniş imkanları vardır. Turistlər klassik musiqi ilə zəngin musiqi irsi olan Akademik Opera və Balet teatrında tanış ola bilərlər. Burada ifa sənəti və rəngarəng repertuar tamaşaçını məftun edir. Bakıda Dövlət Filarmoniyası və Respublika Sarayı fəaliyyət göstərir.

Azərbaycan hələ qədimdən milli mətbəxi ilə şöhrət tapıb. Bol meyvə-tərəvəz, xoş rayihəli göyərti və ədva Azərbaycan aşpazlarını müxtəlif çeşidli milli xörəklər hazırlamağa ruhlandırmışdır və bu yeməkləri digər millətlərin mətbəxləri ilə qarışıq salmaq mümkün deyil.

Azərbaycan elə bir təbii iqlim ehtiyatlarına malikdir ki, onun müxtəlifliyi nisbətən qapalı coğrafi zonada xüsusi dəyər və nadirlik kəsb edir. Qeyd edək ki, bu bənzərsiz təbii iqlim şəraiti quru və dəniz akvatoriyasının heyvan və bitki aləminin cürbəcür növ tərkibinə öz təsirini göstərmişdir.

Hər növ müalicəvi mineral sular, isti bulaqlar (İstisu, Badamlı, Vayxir Sirab və s.) və palçıqlar, həmçinin nadir Naftalan neft qastroterapiya (mədə xəstəlikləri), nevropatalogiyadan (əsəb xəstəliyi) tutmuş, ənənəvi təcrübədə çətin müalicə olunan ekzema (dəri xəstəliyi) və dayaq-sümük aparatı xəstəliklərinədək hər növ tibbi ehtiyacları təmin edir. Göstərilən təbii iqlim şəraiti kompleksinə nəzər yetirdikdə peşəkar və rekreasion turizmin aşağıdakı növlərinin təşkili perspektivi gerçəkləşə bilər:

- qolf
- müalicəvi-balneoloji
- balıq ovu ( o cümlədən, çayda, göldə, dənizdə, sualtı)
- ovçuluq
- alpinizm və speleoturizm ( idman turizminin – ekstrim maçəranın bir növü. Bu sahə ilə maraqlanan turistlərdən fiziki hazırlıq, dözümlük, sağlamlıq, əsas etibarilə isə xüsusi hazırlıq tələb olunur. Speloturizmin məqsədi mağaraların kəşfi və tədqiqatıdır. Tədqiq olunmuş mağaralara kütləvi səyahət isə sonradan baş verir. Əslində bütün mağaralar turizm obyektləridir).
- etnoqrafik (rus, yəhudi icmalarına baş çəkmə, Azərbaycanın az saylı xalqlarının mədəniyyəti və məişəti ilə tanışlıq)
- elmi-sualtı (nadir dəniz florası və faunası ilə tanışlıq) ,sualtı arxeologiya, zooloji və foto ov.

Çimərlik istirahəti üçün yüksək təbii-iqlim rahatlığın səviyyəsi beynəlxalq turizmin olduqca geniş yayılmış növündən səmərəli istifadə etməyə imkan verir. Deyilənləri və beynəlxalq turizm strukturunda ixtisaslaşdırılmış və tematik səyahətlərin cazibədarlığının kifayət qədər sabit artımını nəzrə alaraq Azərbaycan Respublikasına gəlmə turizmin reklam şüarı ünvanlı şəkildə



təxminən aşağıdakı reklam-məlumat xarakterli ismarıcla öz ifadəsini tapa bilər:

"Azərbaycan təkcə neft yox, həm də zəngin tarix deməkdir".

"Turistləri Xəzər dənizinin qaynar nəfəsi və nadir sualtı mənzərə ilə təmasdan, dəniz səyahəti, həyəcanlı dağ keçisi oyu, uğurlu balıq ovundan unudulmaz təəssüratlar gözləyir".

"Dünyada bərabəri olmayan isti bulaqlar, müalicəvi mineral sular və palçıqlar, ən yeni üsullar və ixtisaslı həkimlərin qulluq göstərməsi sizi gümrahlaşdırar".

Belə reklam şüarları çətin ki, yaxın gələcəkdə aktuallığını və cazibədarlığını itirmiş olsun, belə ki, təbiətdə insan ayağı dəyməmiş yer getdikcə azalır. Bu kimi şüarlar əsasında son dərəcə ixtisaslaşdırılmış, eyni zamanda getdikcə genişlənən kontingent üçün nəzərdə tutulmuş müntəzəm səyahətlər təşkil oluna bilər.

XXI əsrin başlanğıcı üçün gəlmə turizmin maddi bazasının mühüm start ehtiyatı kimi son illərdə Bakı şəhərində inşa edilmiş rahat mehmanxanaları, Nabranda və digər bölgələrdə yaradılmış turist və əyləncə komplekslərini qeyd etmək lazımdır. Əgər əvvəllər Azərbaycanda "ulduz" təsnifatına uyğun bir neçə mehmanxana mövcud idisə, indi təkcə Bakıda "Həyat Recensi", "Həyat Park", "SAS Radisson", "Delfin", "Krestin Biç", "ISR Plaza" və s. kimi mehman-xanalarda bir dəfədə 2500 turistin bütün rahatlığı təmin olunmaqla yerləşdirmək mümkündür. Müasir telekommunikasiya vasitələri, bank xidməti və kredit vərəqələri ilə iş tətbiq olunmağa başlanılmışdır.

Paytaxtın və bir sıra rayonların yaşayış məntəqələrində restoran, bar və kafelərin interyerləri, beynəlmiləl mətbəxlərin çoxcəhətliyi və keyfiyyəti dünya standartlarına uyğun gəlir. Ticarət şəbəkəsində gündəlik tələbat malları və suvenir məhsulları kifayət qədər müxtəlif və keyfiyyətlidir.

Son vaxtlar Azərbaycan Respublikasında xarici turoperatorlar şəbəkəsi fəaliyyətə başlamışdır. Yerli turoperatorlar – Azərbaycanın turizm məhsulu ilə dünya bazarına sərbəst şəkildə çəsarətli çıxışlar edən kiçik və orta biznes müəssisələridir. Artıq deyildiyi kimi, onların turizmlə bağlı təklifləri bütövlükdə Azərbaycanda gəlmə turizmin ehtiyatlarına və mümkün reklam şüarına uyğun gəlir. Onlar 5-8 günlük hər cür şəraitlə təmin olunmuş ovçuluq, çimərlik, müalicəvi səyahətlər, həmçinin tarixi – memarlıq abidələri üzrə idraki səyahətləri təklif edirlər. "Böyük İpək yolu" marşrutu üzrə yolların yaxın vaxtlarda tam istismara verilməsi Azərbaycanda gəlmə turizmin inkişafına qüvvətli təkan verəcəkdir. Ümumdünya Turizm Təşkilatı ekspertlərinin məlumatlarına görə həmin marşrutla ildə 100 min əcnəbi vətəndaş ölkəyə səfərə gələ bilər.

**Çingiz BAĞIROV**

## Ədəbiyyat


1. "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı", 27 avqust 2002.
2. Azərbaycan olduğu kimi, Bakı, 2002.
3. Aşurbəyli S. Bakı şəhərinin tarixi, Bakı, 1998.
4. Beynəlxalq sərgilərdə iştirak ənənəyə çevrilir. "Turizm yenilikləri" qəzeti N 1, yanvar 2004.
5. Bilalov B. Dünyada və Azərbaycanda gəlmə turizmin müasir durumu. "Dirçəliş XXI əsr" jurnalı, N 71, Bakı, 2004.
6. Dərgəhov V. Azərbaycanın Xəzər sahili bölgəsinin rekreasiya-turizm ehtiyatları. Bakı, 2003.
7. Həsənov S. Böyük İpək yolu. "Turizm yenilikləri" qəzeti, N 5, dekabr, 2004.
8. Qurbanov F. Azərbaycanda turizmin inkişafının aktual problemləri. "Turizm yenilikləri" qəzeti, N 3 və N 5, Bakı, 2003.
9. İsakov H. İpək yolu və Azərbaycanda turizmin inkişaf imkanları. "Turizm yenilikləri" qəzeti N 1, fevral 2005.
10. Mahmudov Y. Səyyahlar, kəşflər, Azərbaycan. Bakı, 1985.
11. Məmmədov C.A., Bilalov B.Ə. Azərbaycanda gəlmə turizm və onun inkişaf yolları. Bakı, 2004.